# Çingiz Aytmatov – ədəbiyyatı vicdan məsələsi sayan yazıçı



Nəriman ƏBDÜLRƏHMANLI



*'Belə deyil, - onda Çingiz Törəkululu deyirdi. – İnsan yaşlaşdıqca həyatın ümumi məsələləri üzərində düşünməyə başlayır. Əsl ədəbiyyat özündə çox şeyləri, o sıradan da dini duyğuları ehtiva eləyir. Daha doğrusu, insana gündəlik həyatında - xüsusilə də siyasətdə - aid olan dini sahəyə də şamil edilir. Mənə elə gəlir, insanın ruhu qəlibə salınmamalıdı. İlahi Ruha oxşayan bu ruh onun kimi hər şeyi çulğamalıdı. Dünyada elə hadisələr baş verir ki, heç bilmirəm onları kim və nə vaxt yazacaq. Hələ ki, baş verənləri ümumiləşdirmək, dərk eləmək olmur, hər şey Xaostan yeni dünyanın yaranmasını xatırladır. Çağımızın insanı kimdi? Bədi obrazlarımda bu probleçə yaxınlaşmağa çalışmışam".*

Bəlkə, elə buna görə, Çingiz Aytmatov 1990-cı ildə ziyalı və ədəbiyyat, ziyalı və hakimiyyət, ziyalı və xalq mövzularında yapon yazıçısı Daysaku İkedayla apardığı davamlı dialoqunu "Ruhun böyüklüyünə oda" adı ilə nəşr etdirdi. "Məncə, ədəbiyyat və ziyalılar müharibələrin törədilməsində çox günahkardılar, - yazıçı deyirdi. – Bəzən mitinqdəki sayaq insanları yerlərindən oynadan sözlərimizlə o münaqişələri özümüz qızışdırırıq".

Ədəbiyyatı həmişə "vicdan məsələsi" sayan Çingiz Aytmatov bu məsələdə nikbin ovqatda deyildi: "İndi "vicdan" anlayışının özü belə, it-bata düşüb. Vicdanı lağa qoyur, alçaldır, qiymətdən sallırlar. Elə təsəvvür yaradırlar, guya, bu arxaik sözdü. Amma ədəbiyyata və incəsənətə texniki tərəqqi elementi kimi baxmaq olmaz, çünki onlar mahiyyətcə köhnəlmirlər. Əxlaqi, mənəvi, etik normalar hər bir texniki nailiyyət zamanı qiymətini itirmir".

***Çingiz Aytmatovun yaradıcılığında xristian dəyərlərindən söz açılsa da, yazıçı dini axtarışlarında bəhaizmə üz tutub, 1998-ci ildə Feyzolla Namdarla söhbətlərinin yekunu kimi, 'Bir bəhai ilə gtörüş" kitabı işıq üzü görüb. O, söhbətlərində millətsevər olduğunu, amma millətçi ekstremizmə qarşı çıxdığını daim vurğulayıb:"Taleyim elə gətirib k, ikidilli yazıçı olmuşam, qırğız və rus mdəniyyətlərinin övladıyam. Məni bu məsələdə kimsə günahlandıra bilməz. Fərq yalnız dillərdədi, mahiyyət isə eynidi: ədəbiyyat..."***

Ədəbiyyata təmənnasız xidməti Çingiz Aytmatova vətəni Qırğızıstanın, keçmiş SSRİ-nin, Azərbaycan, Qazaxıstan, Özbəkistan, Türkiyə, Macarıstan, Polşanın... ali dövlət təltiflərini, çoxsaylı mükafatlarını, o cümlədən, Avropa Ədəbiyyat, İtaliya Mədəniyyət, Beynəlxalq Cavahirləl Nehru, Viktor Hüqo.. mükafatlarını qazandırıb...

## 5.Yazıçının sonuncu peyğəmbərliyi

Çingiz Aytmatovun 2005-ci ildə Brüsseldə bitirdiyi "Dağlar yıxılanda (Əbədi gəlin)" romanı növbəti illər Moskvada bir neçə dəfə kütləvi tirajla işıq üzü gördü, dərhal da ədəbi aləmin diqqətini çəkdi, qırğız, türk və başqa dillərə çevrildi. Ədib baş qəhrəmanı, müstəqil jurnalist, həqiqət aşiqi Arsen Samançinin simasında sanki yer aləmiylə - fani dünyayla – vidalaşır. "...Romanda yenidənqurmadan sonrakı qloballaşmanın konkret insanların həyatına necə təsir etdiyini, bizi necə dəyişdiyini göstərməyə cəhd etmişəm... Əbədi gəlin sırf mifoloji qəhrəmandır. İki-üç yüz il keçməsinə baxmayaraq, iftira atılmış qız hələ də dağlarda dolaşır və sevgilisinin həsrəti ilə yanır, ona olan sədaqətini anlatmağa və sübut etməyə çalışır. Mənə görə bu əfsanənin simvollaşdırdığı tək bir dəyər var: Eşq - insanın sahib olduğu ən uca dəyərdi...", - o, müsahibələrinin birində deyirdi.

Çingiz Aytmatov bu inamda idi ki, mif öz-özlüyündə xalq düşüncəsinin gücünü əks etdirir, amma miflərə nə qədər meyl etsək də, bilməliyik ki, ədəbiyyatın əsas predmeti insandır.

O illərdə Qırğızıstan Qar Bəbirlərini Müdafiə Cəmiyyətinin prezidenti olan Çingiz Aytmatov əsərdə öz sürüsündən qovulmuş Jaabars adlı qar bəbirinin hekayətini də qələmə alıb. Əslində, Arsen Samançin və Jaabarsın yolları çıxılmazlıqda – mağarada kəsişir. Zəmanədən yaxşı baş çıxaranlar sanballı məbləğ müqabilində ərəb şahzdələri üçün qar bəbiri ovu təşkil eləyirlər. "Yenidənqurmanın azmış durnası" olan Arsen mənəvi azadlıq aşiqidi, meloman kimi musiqini bəşərin ali azadlığı və gözəlliyi sayır, opera müğənnisi Aydanaya aşiq olur, uşaq vaxtı eşitdiyi Əbədi Gəlin əfsanəsini opera səhnəsinə qoymaq və Aydananı həmin operada əsas rolda görmək arzusuyla yaşayır. Amma qız asan şöhrət yolunu seçir, restoranlarda, stadionlarda oxumaqla pop ulduzu olur, "Əbədi Gəlin"i roka, yüngül estradaya qurban verir.

Əfsanə isə Eleslə Arsenin simasında tamamlanır. Sanki dağlar da onların sevgisinin intizarında imiş. Lakin ümidlərin də dağlar kimi yıxıldığı zamanlar olur. "Hamı və bütün zamanlar üçün bircə mütləq həqiqət var – heç kəs taleyinin necə olacağını, alnına nə yazıldığını qabaqcadan bilmək iqtidarında deyil, kimə nə tale bəxş edildiyini yalnız həyat özü göstərir, yoxsa olub-keçəni heç tale də adlandırmaq olmaz...", - yazıçının gəldiyi nəticə budu...

## 6.Dünyaya verilən suallar

***'İnsanlar niyə belə yaşayırlar? Niyə adamların bəzisi xeyirxah, bəsizi isə qəlbiqara olur. Niyə dünyada xoşbəxtlər və bədbəztlər var? Niyə bəzi adamlardan hamı qorxur, bəzi adamlardan isə keç kəs qorxmur? Niyə birinin uşaqları var, o birinin yoxdu?" "Ağ gəmi" povestinin yeddi yaşlı qəhrəmanını narahat eləyən bu düşüncələr dünyaya verilən əbədi suallardı.***

Az qala, yetmiş il sonra uşaqlığına könlü istədiyi kimi qayıda bilməyən, vaxt qıtlığından əziyyət çəkən, diplomatik qayğılarıyla yanaşı, Qırğızıstanın YUNESKO-dakı nümayəndəsi, Avropa Paqrlamentinin deputatı kimi məsul vəzifələr daşıyan Çingiz Aytmatov uşaqlıq və yeniyetməlik illərinin xatirələrini qələmə almaq arzusuyla yaşayırdı. O xatirələrin bir qismini ilk povestlərində, "Balaca əsgər", "Sıpayçı", "Kor yağış", "Oğula görüş", "Qızıl alma", "Quraqlıqda" və başqa hekayələrində bədiiləşdirsə də, memuar şəklində qələmə almaq barədə düşünürdü. 1997-ci ildə işıq üzü görən "Nağıllar" toplusu da elə bu istəkdən yaranmışdı.

Yazıçının bu arzusu tərcüməçisinin sayəsində gerçəkləşdi. Daim əlində diktofon ona həyatı, müharibə çağlarına düşən yeniyetməliyi, məktəbdə oxuduğu illər, yaradıcılığının qaynaqları barədə suallar verən tərcüməçi 1998-ci ildə alman dilində "Qırğızıstanda keçən uşaqlıq" adlı kitab nəşr etdirdi. "Ona, məsələn, böyük nağılçı olan, çoxlu əfsanə bilən nənəmdən söz açmışdım, - yazıçı deyirdi. – Mən məhz nənəmin sayəsində yazıçı olmuşam. Kitab danışdığım həyat hekayələrindən ibarətdi..."

Çingiz Aytmatov ömrünün çox qismini yaşadığı sovet rejiminin çatışmazlıqlarını tənqid eləsə də, o dövrü lənətləməyi ağlına belə gətirməyib. "İnsan öz həyatını necə lənətləyə bilər? – yazıçı təəccübünü bildirirdi. – Bunu yalnız sözdə demək olar. Axı tarixi inkar eləmək olmaz. Bu, tarixdi, ona dialektik yanaşmaq lazımdı. Çoxları o dövrü lənətləyib deyir, onda yaratmaq mümkün deyildi, indi isə mümkündü. Amma nədənsə çox az və dayaz yazıçılar ortaya çıxır. Bəlkə, məsələ, materialın müqavimətindədi? Axı müqəddəs söz yalnız daxili polemikada, ölü və əyri şeylərlə qarşıdurmada yaranır..."

## 7.Azərbaycanın böyük dostu

Çingiz Aytmatov cavan yaşlarından şəxsiyyəti, düşüncələri və yaradıcılığıyla bütün bəşəriyyətin övladına çevrilsə də, ömrü boyu soy-kökünü, mənsub olduğu xalqı unutmurdu, eyni zamanda, türk etnosuna sevgisini də dönə-dönə dilə gətirirdi. O, Azərbaycanı da sevir, mədəniyyət və ədəbiyyat xadimləriylə əlaqə saxlayırdı. İlk dəfə 1985-ci ildə Bakıya, istiqlal şairimiz Bəxtiyar Vahabzadənin 60 illik yubileyinə gəlmişdi. O vaxtdan yubileylərinin Bişkek və Moskvayla yanaşı Azərbaycanda da keçirilməsi ənənə şəklini almışdı.

***2008-ci ildə Qırğızıstan keçmiş prezidenti Kurmanbek Bakiyevin fərmanı ilə Çingiz Aytmatovun 80 illik yubiley tədbirlərinin hazırlanması və keçirilməsi ilə əlaqədar Təşkilat Komitəsi yaradılmış, Qırğızıstanda 'Çingiz Aytmatov ili" elan edilmiş, vətənindən kənarda keçirilən ilk yubiley mərasimi Azərbaycanda baş tutmuşdu. Qırğızıstanda fəaliyyət göstərən Türkdilli Ölkələrin Siyasətinə Dəstək İctimai Fondu və Dünya Azərbaycanlıları Konqresinin Bakı nümayəndəliyinin dəstəyi ilə baş tutan səfərdə yazıçı bir sıra görüşlər keçirdi, Azərbaycan və Qırğızıstan respublikaları arasında qarşılıqlı əlaqələrin möhkəmləndirilməsindəki xidmətlərinə görə 'Dostluq" ordeni, Türkdilli Ölkələrin Siyasətinə Dəstək Fondunun qızıl medalı ilə təltif olundu.***

Bu səfərdən az sonra, iyunun 10-da böyük ədib Almaniyanın Nürnberq şəhərində taleyindən daim narahat oduğu bu dünyayla vidalaşdı və doğma qırğız torpağında əbədiyyətə qovuşdu...

2012-ci ildə Çingiz Aytmatovun iş otağından hələ işıq üzü görməmiş "Torpaq və tütək" romanının əlyazması tapıldı. Romanın qəhrəmanı ötən əsrin 40-cı illərində Qırğızıstanın ən böyük tikintilərindən biri olan Böyük Çuy kanalının inşasında çalışır, Çuy Buddasının böyük heykəlini tapır. Əminliklə söyləmək olar ki, hələ ədəbi aləmə təqdim edilməmiş bu əsər Çingiz Aytmatov yaradıcılığının daha bir qatını üzə çıxaracaq.

***

2023-cü ilin sıxıntılı qış günlərində çüvirdiyim "Dağlar yıxılanda (Əbədi gəlin)"romanı, "Üz-üzə" povesti və hekayələri böyük söz ustasının şəxsiyyətinə və yaradıcılığına sevgimin nişanəsi olmaqla yanaşı, həm də dünyaya son ismarıcını oxuculara çatdırmaq arzusundan qaynaqlanırdı. Onda ədibin 95 ilik yubileyinin yaxınlaşdığı barədə heç düşünməmişdim.

***Amma xoş təsadüf üzündən Qırğız Respublikasının Azərbaycan və Gürcüstandakı səfiri Kayrat Osmanaliyevlə tanış olduq, ideyam onun diqqətini cəlb elədi, nəticədə ədibin oğlu, Beynəlxalq Çingiz Aytmatov Fondunun prezidenti Eldar Aytmatovun səmimi ön söz yazdığı kitab nəfis şəkildə işıq üzü gördü, təqdim olundu, həmin ilin dekabrında keçirilən yubiley tədbirində iştirakçılara paylandı.***

***2024-cü ilin aprelində keçirilən "Qırğız mədəniyyəti günləri" çərçivəsində Çingiz Aytmatovun abidəsinin açılışında iştirak eləmək, əsərlərinin tərcüməsinə görə, Qırğız Respublikası Mədəniyyət, İnformasiya, İdman və Gənclər Siyasəti Nazirliyinin təltifinə layiq görülmək isə ədəbi taleyimə yazılan ən gözəl səhifələrdən biri oldu...***

(ardı gələn sayımızda)